# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 516** **Bakı şəhəri, 30 dekabr 2020-ci il**

***"Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə"də dəyişiklik edilməsi haqqında***

"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1271-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəza-ların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 oktyabr tarixli 303 nömrəli Fərmanının 1.2-ci bəndinin və "Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respub-likasının 2020-ci il 25 iyun tarixli 140-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyul tarixli 1103 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4 (II kitab), maddə 211; 2003, № 6, maddə 342; 2004, № 4, maddə 286; 2005, № 11, maddə 1076; 2006, № 5, maddə 463; 2009, № 4, maddə 282, № 10, maddə 846; 2010, № 11, maddə 1040; 2016, № 6, maddə 1198, № 9, maddə 1585; 2019, № 12, maddə 2064) ilə təsdiq edilmiş "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.2.4-cü yarımbənd əlavə edilsin:

"1.2.4. Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş yekun qərarına əsasən dövlət nəfinə verilən əmlaka;".

2.2. 2.1-ci bəndin ikinci abzasından ", hökm və ya" və hər iki halda "hökmün və ya" sözləri çıxarılsın.

2.3. 3.1.5-3.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.1.5-3.5-ci yarımbənd əlavə edilsin:

"3.1.5-3.5. Azərbaycan Respublikasının Baş Prokurorluğu.".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti 2020.- 31 dekabr.- S.6.